# XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı

*XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin əməkdaşları* il ərzində Azərbaycan ədəbiyyatı: mərhələləri, klassikləri, abidələri problemi üzrə "XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatının inkişaf meylləri və xüsusiyyətləri" mövzusunda 1 kitab, 34 məcmuə məqaləsi, 17 qəzet məqaləsi, 4 tezis, o cümlədən xaricdə 5 məqalə, 4 tezis çap etdirib. 18 elmi işçinin əsərlərinə istinad olunub.

Prezident sərəncamları əsasında Mir Cəlal Paşayevin – 110 illiyinə həsr edilmiş elmi sessiyada *prof. Ş.Alışanlı* "XX əsr Azərbaycan ədəbiyyatının Mir Cəlal fenomeni" ("Azərbaycan", 26 aprel 2018); Mikayıl Müşfiqin 100 illiyinə həsr edilmiş elmi sessiyada "Milli poetik sistemin təkamülündə Mikayıl Müşfiqin rolu", *dosent Safurə Quliyeva* "Milli azadlıq carçısı Mikayıl Müşfiq", *dosent Hicran Nəsibova* "Müşfiq poeziyasında uşaq dünyası" mövzusunda məruzə edib. Şöbə müdiri "Ədəbiyyat" qəzetində "Yaradıcı ömrün böyük bəhrəsi" (7 aprel 2018), "Tarixin elmi və bədii dərki" (8 yanvar 2018), "525-ci qəzet"də "Sazın qüdrətilə sözün hikmətini qovuşduran ustad" (15 mart 2018), "Azərbaycan" jurnalında "Sənətkarın obrazı" (№5, 2018), "Hüseyn Cavid irsinin görkəmli tədqiqatçısı" K.Əliyevin "Hüseyn Cavid" monoqrafiyasına müqəddimə ("Elm və təhsil", 2018), *Əməkdar elm xadimi, professor Fəridə Vəlixanova* "Ədəbiyyat məcmuəsi"ndə "Azərbaycan yeni əsrin dünya mədəni məkanında" (Bakı, "Elm və təhsil", 2018), AMEA-nın Elmi xəbərlərində "İmran Qasımov – 100" məqalələrini çap etdirib.

2018-ci ildə *dosent Safurə Quliyeva* 7 məqalə (AMEA-nın "Elmi Xəbərləri"i (№1, 2018), "Elmi yaradıcılığın işığında" "Ədəbiyyat məcmuəsi" (XXXII cild, № 1, 2018), "Poeziyada istiqlalımızın yüz ili", "Ədəbiyyat qəzeti" (6 oktyabr 2018), "Mikayıl Müşfiqin tarixə mesajları", "Azərbaycan" qəzetində "Azadlıq carçısı (M.Müşfiq haqqında)" (7 iyun 2018), "Respublika" qəzetində "Əhməd Cavad poeziyası") çap etdirib.

*F.ü.f.d., dosent Günay Qarayeva* "Azərbaycan və türk şeirində günəş, ay, ulduz simvolları" məqaləsini Azərbaycan-Türkiyə II Beynəlxalq elmi konfransın materiallarında (Azərbaycan-Türkiyə-İlişgileri. Bakı, 2018, 472 s.), "2017-ci ilin uşaq nəsri və dramaturgiyası" (Ədəbi proses-2017) adlı məqalə-məruzəsi "Hədəf" (B., 2018) nəşriyyatında, Ə.Haqverdiyevin "Ac həriflər" kitabına ön söz (Bakı, TEAS Press Nəşriyyat evi, 2018), Rəşid bəy Əfəndiyevin "Məktəbə dəvət" kitabına ön söz (Bakı, TEAS Press Nəşriyyat evi, 2018) və Abbas Səhhətin "Yay səhəri" kitabına ön söz (Bakı, TEAS Press Nəşriyyat evi, 2018), *f.ü.f.d., dos. İlham Məmmədlinin* 6 məqaləsi ("Mikayıl Müşfiq yaradıcılığında dördlüklər". "Elm və təhsil", (№2, 2018), "Fikrət Sadığın dördlüklərinin sənətkarlıq xüsusiyyətləri" (BQU, №3, 2018), "Duyğulu illərdən doğulan "Duyğu yarpaqları" (№4, 2018, BQU), "XX əsr poemasında milli müəyyənlik ideyaları dördlük formasında" BQU-nun elmi əsərlərində №5, 2018) çap edilib.

*F.ü.f.d. Hicran Nəsibova* “Sanat-Edebiyyat-Kültür Dergisi”ndə “Azərbaycan şeirində milli özgürlük motivləri (1960-80)” məqaləsini (Eylül-Ekim 2018, sayı 17, sayı 18), “Tofiq Mahmudun uşaq dünyası” məqaləsini Tofiq Mahmudun “Yasəmənim” (Bakı, “Üç alma”, 2018) kitabında nəşr etdirib.

*F.ü.f.d. Aytən Rüstəmzadənin* 9 məqaləsi çap olunub: (“Elçinin nəsrində sadə insan surəti” (Bakı Qızlar Universiteti. Elmi Əsərlər, №2, 2018); “İ.Qasımovun nəsrində ziyalı surəti” ("Filologiya məsələləri" jurnalı, №9, 2018); “Müşfiqin tərcümə sənətkarlığı” ("Azərbaycan" jurnalı, №6, 2018); “Üzeyir bəy Hacıbəylinin Azərbaycan publisistika tarixində rolu” (Bakı Qızlar Universiteti. Elmi Əsərlər, №3, 2018); Qaqauz yazıçısı D.Karaçobanın yaradıcılığına həsr edilmiş "Огнём любви к прекрасному" ("Литературный Азербайджан", №8, 2018); İsa Muğannanın "Məhşər" romanında tarixi şəxsiyyət” ("Dil və ədəbiyyat" Beynəlxalq elmi- nəzəri jurnal, №3(107), 2018); “S.Rəhimovun hekayə yaradıcılığında milli kolorit” ("Filologiya məsələləri", №12, 2018); “1920-1930-cu illər nəsrinin ideya-bədii xüsusiyyətləri” ("Filologiya məsələləri", № 915, 2018); “İ.Əfəndiyevin "Büllur sarayda" pyesində mənəvi-əxlaqi dəyərlər” ("Əlyazmalar yanmır" jurnalı, №4 2018).

*F.ü.f.d. Təranə Aslanovanın* “Afaq Məsudun yaradıcılığında qadın obrazı”, “Həsən Seyidbəylinin romanları” məqalələri (№3,4, 2018), *f.ü.f.d. Tahir Mənsimovun* “C.Cabbarlının tərcümələri”, “Hüseyn Abbaszadənin yaradıcılığı”, “İsa Hüseynovun yaradıcılığı” məqalələri AMEA-nın Əlyazmalar İnstitutunun jurnalında (№3,4,5, 2018) çap edilib. Elmi işçi Dilarə Adilova 2 məqaləsini – M.Hüseynin povestləri silsiləsindən (“Kin” və “Tərlan” povestləri əsasında) və “Mehdi Hüseynin “Komissar” povestində həyat həqiqətinin bədii əksi” yazılarını BDU-nun “Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnalı”nda (№2,3, 2018) çap etdirib.

*F.ü.f.d Yadigar Əsgərovanın* “Dantenin “İlahi komediyanın tərcüməsi” məqaləsi Bakı İslam Universitetinin “Elmi məqalələr” toplusunda çap olunub (II buraxılış, 2018).

*F.ü.f.d. Əflatun Baxşəliyevin* elmi məqalələrinin məcrası xalq şairi Səməd Vurğunun türk xalqları ədəbiyyatı haqqında ədəbi-nəzəri görüşləri ilə bağlı olub. O, S.Vurğunla Qazax, türkmən ədəbiyyatı arasında kəsişən məqamlara araşdırıcı münasibət bildirib. Onları “Dil və ədəbiyyat” (BDU, 2(106), 2018) “Filologiya məsələləri” (№14, 2018), “Azərbaycan ədəbiyyatşünaslığı” (№2, 2018) jurnallarında çap etdirib.

Şöbə əməkdaşlarından *Ədalət Rəsulova, Elmira Babayeva, Elza Rəhimovanın* da “Ədəbiyyat məcmuəsi”, “Dil və ədəbiyyat”, “Poetika. İzm” jurnallarında və konfrans materiallarında əsərləri nəşr edilib.

*F.ü.f.d. Günay Qarayeva* 1-5 oktyabr 2018-ci ildə Ankarada keçirilən XVIII Türk tarixi Konqresində “XX əsr Azərbaycan şeirində sufi simvolikasının identifikasiyası”, 28 iyunda Azərbaycanda keçirilən Turkcess -2018 adlı beynəlxalq konfransda “Azərbaycan Xalq Cümhuriyyəti – Simvolik Polisemiya və Sovet Senzurası” mövzusunda, 2018-ci ilin sentyabrında Gürcüstanda keçirilən beynəlxalq konfransda “Cumhuriyyət simvolikası – simvolda transformasiya (1920-1930-cu illər Azərbaycan şeiri əsasında”) mövzusunda məruzə edib.

*F.ü.f.d. Hicran Nəsibova* 28 iyunda Bakıda keçirilmiş IV Uluslararası Türk Kültür Coğrafiyasında Egitim və Sosial Bilimlər Simpoziumunda AXC –nin 100 illiyi münasibətilə “Milli azadlıq hərəkatında Azərbaycan poeziyasının rolu” (1960-1980-cı illər)” mövzusunda məruzə edib və tezisləri 27-30 iyun materiallarında (Konqre özet kitabı, Türkcess 2018, 27-30 Haziran 2018) çap olunub.

Şöbənin müdiri, *prof. Şirindil Alışanlı* bu ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunub.

Şöbənin *elmi işçisi Elmira Babayeva* “Mövlud Süleymanlının bədii nəsri” mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edib.

Şöbənin *əyani doktorantı Gülşən Ağabəyin* “XX əsr Azərbaycan satirik şeirinin mərhələ və problemləri” mövzusunda fəlsəfə doktorluğu dissertasiyasının ikinci müzakirəsi keçirilib. Şöbənin dissertantı *Səbuhi Qəhrəmanov* “Ədəbi-tarixi prosesin problemləri və istiqamətləri (XX əsrin 20-30-cu illəri)” mövzusunda filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasını müdafiə edib. Kiçik elmi işçi *Töhfə Əmrahlı* Azərbaycan ədəbiyyatı üzrə əyani doktoranturaya qəbul olunub.

Bu ildə şöbənin dissertantı *f.ü.f.d. Abuzər Bağırovun* “Moskvadakı Azərbaycan ədəbi-mədəni mühit fenomeni” monoqrafiyası (Bakı, “Elm və təhsil”, 2018, 360 s.) çapdan çıxıb. Nəşrin elmi redaktoru akademik Teymur Kərimlidir.

Moskvada yaşayan ədəbiyyatşünas-alim Abuzər Bağırovun bu monoqrafiyasında moskvalı azərbaycanlıların yaratdığı ədəbi-mədəni mühit, onun özəllikləri tarixi-ədəbi və nəzəri-bədii baxımdan ilk dəfə tədqiq olunub. Moskvalı azərbaycanlı sənətkarların çoxşaxəli yaradıcılıq irsi qiymətləndirilib, onların yaradıcılığı milli ədəbi prosesin ayrılmaz tərkib hissəsi hesab olunub, Azərbaycan və rus ədəbiyyatları arasında sağlam mədəni əlaqə və varislik kimi təhlil edilib.

Monoqrafiya alimin müəllimləri, ustadları SSRİ EA-nın müxbir üzvü Yevgeni Bertels, prof. Əziz Şərif və professor Qəzənfər Əliyevin nurlu xatirələrinə ithaf olunub.

**Hazırladı:**

**Əlizadə Əsgərli**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor**

**Şirindil Alışanlı**
**XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor**